

# Elşad Səfərli: İki kitab

*Allahverdi Eminov*

**Yunan şairi Kliment yazmışdı vaxtilə: "Şairin ilahi bir ilham və müqəddəs ürəklə yazdığı hər şey çox gözəldir". Məsul və proqnostik qabaqlamadır: şairə inamdan və umduğundan irəli gələn həqiqətdir. Bu gəzişməm istedadlı, məhsuldar, əyalətdə özünün "poeziya dünyasını" yaradan Elşad Səfərlidən - şairdən aldığım təəssüratla bağlıdır və haradasa mən də məsuliyyət daşıyıram mənəvi baxımından. Arxayınam ona görə ki, Elşadın yaradıcılığı ilə ardıcıl tanışam, haqqında sözümü demişəm. Sevinmişəm, ilk şeirlərinin energetik qüvvəsini son şeirlərinə qədər saxlamışdır; sonuncu ifadə təbiidir ki, fərdi asılılıqdan uzaqdır, ilahi payıdır! Və cari ilimizdə şairin iki kitabı: "Alması düşməyən nağıllar" və "Lənkəran sonetləri" nəşr olunmuşdur. Bu poetik əsərlərin adlarının orijinallığı da fikrimə haqq qazandırır.**

Mən "əyalət" sözünü təsadüfi işlətməmişəm və bölgələrimizdə istedadının "üstündə duran"lar yox deyil, onlar Bakının poetik mühitinə əli çatmayan ədəbi simalardır ki, orada oxucu zövqünə cavab verirlər; bu, böyük ehtiramdır müəlliflər tərəfindən...

Elşadın şeirlərinin əsasən sonrakı nümunələrindən ibarət olan bu kitabları təəssüratım kontekstindən təhlil etməyəcəyəm; onun poeziyasındakı emosionallıqla intellektuallığın vəhdəti, ruh aləminin labirintindən baş çıxarmaq yozumu (şeirin fəlsəfəsidir), mühitin ziddiyyətlərindən irəli gələn parodoksların inikası... Elşad bəlkə də ilkin olaraq irfani şeirləri daha qabarıq kitabında toplamışdır, hərçənd, zənnimcə bu, yaşla dolayısı ilə bağlıdır, lakin ruhun diqtəsinə, şəxsiyyətin bütövlüyünə, zamanın məhəng daşının əyilməsinə birbaşa əsas yaradır. "Ya ilahi, ya Məhəmməd, ya Əli", "Allah, məni bir də üfür", "Tanrım, tövbəmi qəbul et" şeirlərinin təsvir predmetlərində islami ruhun əbədiyaşarlığı ilə bahəm, Vətən məhəbbəti, sözün qüdrəti, ölümün rəng çaları və insan-əxlaq-sosial ədalətsizliyin mövcudluğu poetik tərənnümünü tapmışdır.

İslami insan ən yüngül və ən ağır işə qoşulanda məşhur "Ya ilahi, ya Məhəmməd, ya Əli" kəlamını dilimizə gətirib, ağır zəhməti yüngül yola verir. Bu müdrik çağırış Elşadın şeirində ilk dəfədir yüksək səviyyəsini tapmışdır. Müəllif zahiri təsvirə bel bağlamamış, müqəddəs "epiqrafı" sadəcə təkrarlamamışdır, Allah və onun peyğəmbərlərinə inamı Vətən, torpaq sevgisində görmüşdür. Mənim şeiri yozumumda qənaətim o oldu ki, Vətəni pafosla tərifləmək, uğrunda ölmək - quru patetika deyil; "Araz bölümlü" məskənimizi fəzilətimizlə bəsləməliyik, əzizləməliyik. Bu hansı dəyərli Vətəndir Allah vermişdir:

**Vətən bizə hər nemətdən verib ki,**
**Verdiyin də o, hörmətdən verib ki...**
**Allah bizə elə Vətən verib ki,**
**Mamır bitən daşı da lap sevməli.**

Bəs belə yurdun fəsad xasiyyətli vətəndaşları nəyə əl atır və nəyi düşünür:

**İnsan, olmasın rəftarın kəsincə,**
**Götür balı pətəyindən kəs incə...**
**Bir kəndlinin arx suyunu kəsincə,**
**Süfrəsində tikəsini kəsməli.**

Kəskin səslənməsin fikrim: nə qədər belə psixologiya ilə özü üçün yaşayan "övladlar" günbəgün artırsa...

**Araz bölümü bağrına dəyişmişkən,**
**Sən əyməliydin, yad səni əymişkən.**
**Vətən, sənin Söhrab Tahir demişkən,**
**Heç çöpün də olmayaydı bölməli.**

Şairin haqlı sualı!

**Nə düşmüsən yad əlində girincə?**
**Gücün, qüdrətin qolunda bəsincə...**
**Düşmən önündə dizlərin əsincə,**
**Bir gözəlin qabağında əsməli -**

İstehzalı təbəssüm və çağırış sədası:

**Quraq səhrasında da gül bitənsə,**
**O gülün başında bülbül ötənsə,**
**Bu torpağın hər qarışı Vətənsə,**
**Hər qarışı uğrunda da ölməli.**

Ölüm - yeganə danışıqsız həqiqətdir, doğruluqdur və son anlarını yaşayan "sakininə" təsəlli verir. Bu dünyada əzabla yaşamaqdansa Axirət aləminə aparıram!

Nəhayət, şair nikbinliyi şeirin dominantlığını əyaniləşdirir:

**Az qalıbdır düşmən ilə son cəngə,**
**Xoşluq ilə bitməzsə bu işgəncə.**
**Üç ad çəkib, əl ataram tüfəngə:**
**Ya İlahi, ya Məhəmməd, ya Əli!**

Mən "islamiruh"u təsadüfən işlətmədim; axı irfanilik ədalətlilik, haqsevərlikdir, özünü fetitləşdirmə deyil, insanların çiynində başını qaldırıb Yerə - Məskəninə baxmayasan - faciəvilikdir! Belə tiplərin ucbatından "Araz bölümləri" əmələ gəlir, ayrı-ayrı fərdlərin əməyi sıfıra dəyişdirilir. Bunu "arxasıpapaqlılar"dır yaradanlar. Şairin haqlı məntiqi:

**Millətin bu sayaq "papaqlıları",**
**Millətin içindən yapalaqları -**
**Təpəgöz, canavar, yalquzaqları**
**Yaman səy edirlər bütləşdirməyə.**

**Yenə and içirlər, ümid verirlər,**
**Yenə məsləksizlər cildə girirlər.**
**Bu gün kimlərisə bütləşdirirlər**
**Sabah başımızda əyləşdirməyə.**

Və onlar əyləşib köhnə vərdişlərindən qalmırlar, milyon insanların gözü içinə yalan yağdırırlar: haradan?

**Ekranda gözümə dəyən,**
**Yenə kiminsə boz üzüdü.**
**Söhbət siyasətdən**
**Ciddi qoyulsu da,**
**Danışdığı**
**Bir komediyalıq mövzudu -**

Şairini məzəmməti, danlağı - məlaməti! Kəskin desək: mizantropluq.

Elşadın şair əsəblərindən gələn mənfi motivasiya lirizmə, həzinliyə sığınır, yoxsa pessimizmin girovuna çevrilər. Bir kiçicik şeirində:

**Ölüsü**
**Torpaqda düşüb qalmış yarpaqlar,**
**Darıxmayın.**
**Nəşinizi yağışlar yuyub,**
**Hardasa aparıb.**
**Küləklər dəfn edəcək, - deyir.**

Amma yarpaqlar payızın rəmzi olaraq yaşaya bilir.

**Külək**
**Ağacın budaqlarından**
**Payızı büsbütün çırpmışdı.**
**Cəmi bir budaqda**
**Bir yarpaqlıq**
**Payız qalmışdı.**

Poetik fikrin möcüzəsi, az sözlə geniş lövhə!

Elşad Səfərlinin poeziyasında ictimai varlıq və zaman bədii (poetik) yaradıcılığın yalnız mündərəcəsini, məzmununu deyil, formasını da müəyyən edir, fərdi üslubunu formalaşdırır.

Poeziya belə bir məzmun və forma biçiminə düşəndə həyatın hətta görünməyən tərəfləri şairin mövzusuna çevrilir, şair söz üçün darıxır, zaman hərəkətləri üçün qaçır, məkan uğursuz övladları ucbatından xəcalət çəkir. Şair məhz bu "üçlük" üçün Allahdan aman istəyir - ölüm gözləsin bir az. Bax, şairin sərtliyi qarşısında "yumşaqlığı" da var. Sual çıxır ortaya: Şair nə səbəbdən belə bir mübhəm hissləri keçirir? Ölməkdən qaçmır - qaçılmazdır, ölməkdən qaçır - labüd istəkdir.

**Günüm ölüm-dirim içrə,**
**Ölüm-dirim məşqindəyəm.**
**Öləndə də kişi kimi**
**Mən ölməyin eşqindəyəm.**

Bu, birinci versiyadır. Eşq isə məhəbbətin zirvəsidir, onun üçün də istər-istəməz sevgi-məhəbbət baş tutan deyil.

**Nəyim var - özüm qazandım,**
**"Hazıra hazır" deyiləm.**
**Min yol olub-dirilsəm də,**
**Ölümə hazır deyiləm.**

Bu, ikinci versiyadır. Eşqdən imtinadır, ona görə ki, şairin varlığında başqa bir eşq yaşayır və nədir bu? Miyanə ölümmü? Bu da ölümə haqq qazandırmır.

**Ölüm, məni bir az gözlə,**
**Vaxt deyil - ölə bilmərəm.**
**Yurdum azad olmayınca**
**Qapına gələ bilmərəm...**

İrfanilikdə Vətən sevgisi!

Gerçəklik, yaxud poetik şüurun (idrakın) ödənilməsi, ehtirasın (pafosun) həyəcanlı hal şeirin yaranması üçün məqbul atributlardır və nəsrdən fərqli olaraq poeziyada özünü ağayana aparır, gözəllikdən qaçmır, özünü üslubda tapır, hətta təşəxxüs tələb edir. Şeirin təsvir üsulu gözəlliksiz sıfıra bərabərdir, ruhun həyəcanından uzaqlaşmadır, zövq dolu rahatlığın inkarıdır.

Elşadın "Ekran görüntüləri" silsiləsindən şeirləri poeziyamızda yeni cığırdır, şeirlərin dərin fəlsəfəsi var və şairlərə ilkin tuşlanan o simvolik Damokl qılıncı insanları yalana, riyakarlığa, layiqsiz tərifə aparır, ayağı Qarabağa dəyməyən işğallı məmləkətdən xatirələr danışır! Elə bu sonuncu görüntünün özü insanlığın, humanizmin işğalı deyilmi? Yazılmamış bir komediyaya bənzəmirmi? Teleekran problemi cəmiyyətin yaxşı və pis üzünü aşılayan bir fenomendir; xüsusilə, yeni gələn nəsil həqiqətin - nağılından sevinir, fərəhlənirsə, yalanın nağılından üzülür, içərisini boğur, ikrah hissi yaranır - bu sonuncu "nağıla" ehtiyac varmı - əsla!

**Gözlərimi yumuram,**
**Özümü xoşbəxt görürəm.**
**Görürəm təknədə çörəyim var,**
**Yerim də isti.**
**Gözlərimi açıram,**
**Elə şeylər görürəm...**

Təriflər, yalançı siyasətbazların boz sifəti, yalanların estafet yarışı. Şair məəttəl qalmaya bilmir bu öyünmə oyunundan? Belə vərdiş haradan sızdı beyinlərə? Əzəldən var idimi?

Tərif mümkün etik mədəniyyətdir o halda, o şəxs bu sözlərə layiq yaşamışdır və fəaliyyətindədir. Amma o tərif yada düşür ki, toy vaxtı böylə gəlin təriflər yağışına qərq olur başlarına səpələnən nəmər kimi və üç gündən sonra ayrılırlar cibdən çıxan kağız pullar kimi!

**Öyünən kim olsa yaxşıdı?**
**Öyünən bir tülüngüdü.**
**Təriflə, qada, təriflə,**
**Efir sizin,**
**Ekran sizin,**
**Meydan sizin.**
**İmkan sizin.**

Şair mətanəti, iradə dözümü, haqsızlığı duyma hissi onun ümidini qıra bilmir efirə çıxanlar. Çün, şair Allaha başqa təbəqələrdən daha yaxındır, taleyi sözçülərə elə bir ömür bəxş etmiş ki, daima yamyaşıldır, pöhrəlidir, gövdəsini kəssən də yenisi boy verir genetik kökündən.

**Mən bir ağacam -**
**Ömür ağacı.**
**Arzularımı dibinə tökmüşəm**
**Gübrə kimi.**
**İstəklərimə ümidli olacağam**
**Qəbrə kimi.**

E.Səfərlinin hər iki kitabında sözün yükü müəllifin fəlsəfəsindən götürülür və poetik məsuliyyəti öz üzərində daşıyır, daxili tələbatından təvazökar qənaətini "Siz namərdin şairi" kimi səciyyələndirir. Doğru gileydimi? Müsbət cavab verməzdim! Şair olaraq haqsızlığa ağrıyır, kimsəsizliyə həzinləşir, əzazillərə kükrəyir, təbiətin cəlladlarını baltalayır, cavabsız suallara cavab axtarır. "Monopoliya", "Şekspir", "Tapmaca", "Paxıl", "Əbədiyyat karvanı", "Kommunistlər", "Şair azadlığı və sair şeirləri zaman və məkan paralelində görünən predmetlərin daxili səbəb-nəticə əlaqələrini ehtiva edir.

"Monopoliya"nı ağrı ilə oxudum: Vətən torpağında doğulub yaşayan, islamiyyəyə sığınan, birinə fərasət, digərinə istedad bəxş edən, beləcə ömrün ilə razılaşan İnsanda həsəd yox, paxıllıq hissi haradan qaynaqlanır? Hər bir adam bu fəsadı duyur, görür və düşünür: günahım nədir gözün istedadımı, yaşayış tərzimi, inkişafımı lənətləyirsən. Haradan gəldi dəstəbazlıq, qruppazlıq, yerlibazlıq. Məsələ ondadır ki, aradan qaldırılması əvəzində ilbəil çoxalır, şaxələnir:

**Ortaya çıxıb indi**
**Təzə dəstələr, qruppalar.**
**Ətrafında birləşib**
**Yeni yazarlar,**
**Dostlar, qohumlar, hampalar,**
**Buna deyirlər - monopoliya.**

Mən rusca deyərdim: "naşapolya".

Ədəbiyyat aləmində olan bir şəxs kimi şairin ağrı ilə toxunduğu problem məni də ağrıdır. Xüsusilə, bədii ədəbiyyata və elmə gələn söz adamlarındakı iyrənc xislət nə qazandırır, nəyi vəd edir. Qəribədir, ədəbi vəzifəni - hakimiyyəti qamarlayan o adam avtoritar psixologiyasını şərəfsizcəsinə həyata keçirir, içindəki aqressivliyini əyaniləşdirir, nəticədə amorf formalaşdırır! Mən belələrini cəsarətlə "androgenlər" adlandırardım..

**(ardı gələn şənbə sayımızda)**